# QULİYEV ZABİT ADİL OĞLU



Quliyev Zabit Adil oğlu 6 iyun 1975-ci ildə Kürdəmir rayonunun Ərəbxana kəndində dünyaya göz açmışdır. 1992-ci ildə Ərəbxana kənd orta məktəbini bitirib. Bir müddət doğma yurdda təsərrüfat işləri ilə məşğul olmuş, mexanizator kimi əkin-biçində yaxından iştirak etmişdir. Zabit Quliyev 1993-cü ilin sentyabrında Kürdəmir rayon Hərbi Komissarlığı tərəfindən Milli Orduya çağırılmış və birbaşa döyüş bölgəsinə göndərilmişdir. O, özünü cəsur bir əsgər və bacarıqlı döyüşçü kimi göstərirdi. Z.Quliyev Füzuli, Ağdam, Ağdərə və Tərtər bölgələrində gedən döyüşlərdə rəşadətlə vuruşmuşdur. O, sərrast atəşlə düşmənin ağır döyüş texnikasını sıradan çıxararaq neçə-neçə hücumun qarşısının alınmasında yüksək döyüş məharəti göstərmişdir. Təkcə Seysulan kəndində gedən ağır döyüşlər zamanı o, düşmənin 4 tankını vurmuşdur. Ailəlidir. Bir övlad atasıdır. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Quliyev Zabit Adil oğluna “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir.